# ƏƏSMN-də BMT-nin Əhali Fondu ilə əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub



***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT-nin Əhali Fondunun (UNFPA) Türkiyədəki nümayəndəsi, Azərbaycan, Ermənistan və Gürcüstan üzrə regional direktoru Zahidul Haqla görüş olub. Görüşdə BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Antonius Bruk da iştirak edib.***

Görüşlə bağlı nazirliyin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının ölkəmizdə demoqrafiya və əhali sakinliyi sahəsində proseslərin müsbət yöndə inkişafına da şərait yaratdığını vurğulayan əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, aparılan təhlillər sabit demoqrafik vəziyyətin hökm sürdüyü Azərbaycanda əhalinin 2005-2015-ci ilə qədər olan dövrdə 1 milyon 145 min 600 nəfər artdığını göstərir. Hazırda əhalinin sayının 9,6 milyondan çox olduğu respublikada əhalinin illik artım tempi 1,3 faiz təşkil edir və proqnoza əsasən 2025-ci ildə ölkəmizdə doğulanların sayının 205 300 nəfərə, əhalinin sayının 10 milyon 970 min 300 nəfərə çatacağı gözlənilir.

BMT-nin Əhali Fondu ilə hələ 1994-cü ildən həyata keçirilən əməkdaşlıqdan bəhs edən nazir qeyd edib ki, həmin il Qahirə konfransında qəbul olunmuş "Əhali və İnkişaf" üzrə Fəaliyyət Proqramının prinsipləri demoqrafiya və əhali sakinliyinin inkişafı ilə bağlı aparılan milli siyasətdə həmişə diqqətdə saxlanılır. UNFPA ilə əməkdaşlıqda icra olunmuş proqramlar ölkədə müvafiq sahədə məsələlərin həllində, institisional bazanın təkmilləşdirilməsində, kadr potensialının yaradılması və inkişafında, maarifləndirmə işlərində və s. mühüm dəstək rolunu oynayıb. Azərbaycanda 2015-2025-ci illəri əhatə edən növbəti "Azərbaycan Respublikasının demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" layihəsinin qiymətləndirilməsi işlərində də UNFPA-nın ekspert dəstəyini yüksək dəyərləndiririk. Bu layihədə qeyd olunan Fəaliyyət Proqramındakı vacib tezislər, eləcə də BMT-nin 2015-ci ildən sonrakı dövr üçün irəli sürdüyü siyasi prinsiplər, ölkənin milli strateji prioritetləri əhatə olunub. S.Müslümov həmin Proqram qəbul olunduqdan sonra onun icrası sahəsində də əməkdaşlığın davam etdirilməsinin məqsədəuyğun olacağını vurğulayıb.

Zahidhul Haq Azərbaycanda əldə olunan sürətli tərəqqi proseslərinin, o cümlədən müsbət demoqrafik mənzərənin, əhali sakinliyi sahəsində pozitiv proseslərin onda xoş təəssürat oyatdığını, həmçinin respublikada bu sahədə aparılan siyasətdə BMT prinsiplərinin həmişə nəzərə alınmasından məmnunluğunu ifadə edib. O, qarşıdakı dövrdə də UNFPA ilə Azərbaycan arasında birgə işlərin uğurla davam edəcəyinə əmin olduğunu bildirib.

Nazirlikdən verilən məlumatda qeyd olunur ki, görüşdə UNFPA tərəfindən hazırlanmış gender əsaslı cinsi seçimlə mübarizəyə dair layihənin həyata keçirilməsi, ölkədə demoqrafiya və əhali sakinliyi sahəsində elmi-tədqiqat işlərinin aparılması, bu sahədə elmi kadr potensialının inkişafı, Əhali Sakinliyi və Demoqrafiya üzrə Tədqiqat və Təlim Mərkəzinin fəaliyyət göstərməsinin təmin edilməsi, demoqrafik inkişafın qiymətləndirilməsi, əhali proqnozlarının hazırlanması və s. sahələr üzrə əməkdaşlığın genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadilələri aparılıb.

**M.MUSTAFAYEV,**
**"Respublika".**